AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

*Əlyazması hüququnda*

QƏDİM İGİD OĞLU RUFULLAYEV

# ZƏLİMXAN YAQUB VƏ XALQ YARADICILIĞI

**5719.01 - Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

BAKI-2014

Dissertasiya işi Lənkəran Dövlət Universitetinin Filologiya fakültəsinin "Dil və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İsrafil İsmayıl oğlu Abbaslı, *filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: Ramazan Oruc oğlu Qafarlı
*filologiya üzrə elmlər doktoru, dosent*
İslam Hüseyn oğlu Sadıqov
*filologiya üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə**: Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr" şöbəsi

Müdafiə "28__" _11___2014-cü il saat ___-da Azərbaycan MEA Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən FD.01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat: "___" ____________2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Çağdaş Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan xalq şairi Zəlimxan Yaqub xalq dilinə və təfəkkürünə əsaslanan poeziyamızın ənənələrini daha da zənginləşdirmiş, fərdi yaradıcılıq axtarışları ilə müasir Azərbaycan şeirini yeni poetik zirvələrə qaldırmışdır. Məhz ona görə də tez bir zamanda ədəbi və elmi ictimaiyyətin diqqətini çəkmiş, yaradıcılığı barədə müxtəlif rəylər verilmiş, tədqiqatlar aparılmışdır. Lakin Zəlimxan Yaqubun poeziyasında Azərbaycan şifahi xalq ədəbiyyatının təzahürü əhatəli şəkildə təhlil olunmadığından aşağıdakı məsələlər mövzumuzun aktuallığını artırır:

Zəlimxan Yaqub yaradıcılığı milli aşıq poeziyasının zəngin və əvəzsiz söz xəzinəsindən qaynaqlanaraq yazılı ədəbiyyatımızın xəlqiliyinə yeni bir çalar gətirmişdir. Şair xalq lirik şeirinin, xüsusən aşıq yaradıcılığının, o cümlədən, onun janr müxtəlifliyindən faydalanmaqla Azərbaycan şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın sərhədlərini daha da yaxınlaşdırmışdır.

Şairin yaradıcılığının təhlilini aktual edən səbəblərdən biri də onun əsərlərində təsadüf olunan milli koloritin-doğma yurda sevginin, xalqın məişətinin, inanclarının, sınamalarının, gələcəyə olan nikbin ruhunun orijinal şəkildə ifadəsidir. Bu məqamda şair xalq həyatının tərcümanına çevrilir.

Aktual problem kimi təqdim olunan məsələlərdən biri də milli mentalitet keyfiyyətlərinin bu yaradıcılıqda qorunması və gələcək nəslə olduğu kimi çatdırılmasıdır. Tarixən Şərq dəyərlərinin daşıyıcısı olan Azərbaycan Avropaya inteqrasiyası zəminində bir çox başqa xalqların mədəniyyəti ilə mədəni rəqabətə girmişdir. Bu rəqabətdə mənəvi dəyərlərimizin qorunması və tarixi kimliyimizin yaşanması dövrün öndə duran məsələlərindən biri olmuşdur.

XX əsrin 80-90-cı illərinin əvvəllərindən etibarən Azərbaycanda türk ruhunun yaratdığı ümummilli ideyalar ədəbiyyatda Səməd Vurğun məktəbinə söykənən ənənəvi poetik intonasiyanın yüksəlişinə təkan verdi. Bu nəslin nümayəndələri olan Hüseyn Arif, Qabil, Nəriman Həsənzadə, Məmməd Araz, Cabir Novruz yazdıqları əsərlərində icitmai-siyasi mövzulara müraciət edirdilər. Belə şairlər əhatəsində yetişən və Dədə Qorqud, Yunus Əmrə, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Məmmədhüseyn Şəhriyar, Səməd Vurğunun poetik çeşməsindən su içən Zəlimxan Yaqub uğurlu yaradıcılıq axtarışları ilə daim seçilirdi. Xalq poeziyasına olan marağı, eyni

zamanda əhatəsindəki insanların taleyüklü məsələlərinin həllinə olan həssaslığı onu milli köklər üzərində yazıb yaratmağa vadar edirdi.

Zəlimxan Yaqub poeziyasını aktuallaşdıran məqamlardan biri də sözün təsir gücündən məqsədyönlü şəkildə istifadə olunmasıdır. Onun lirikasında söz təkcə poetik vasitə deyil. O, yeni nəslin tərbiyəsində aparıcı qüvvə, dastanların rəvan dili, saz havalarının kövrək melodiyasıdır. Söz insanı kamilləşdirir, həyata, mübarizəyə ruhlandırır, onda yaşamağa, yaratmağa tükənməz məhəbbət oyadır. Sözün bu təsir gücündən, üsul və vasitələrindən istifadə edən ədib cəmiyyəti onun köməyi ilə tərbiyə etməyə çalışmışdır. Çünki XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbaycanın başına gələn faciələr - qanlı iyirmi yanvar hadisəsi, dəhşətli Xocalı soyqırımı, torpaqlarımızın işğalı, habelə dünya ictimaiyyətinin bu məsələyə biganə münasibəti xalqımızın özünə olan inamını sarsıtmışdır. Belə çətin məqamda başqa sahələrdə olduğu kimi ədəbi aləmdə də insanların düzgün istiqamətdə səfərbər olunması üçün qüdrətli sözə, böyük sənətkara ehtiyac var idi. Mübaliğəsiz qeyd etmək lazımdır ki, Z.Yaqub bu çətin məqamda xalqın köməyinə yetmiş şairlərdən, sənət adamlarındandır. Onun sənətinin xalq ruhundan qaynaqlanması, milli-mənəvi varlığımızın əsərlərindəki ifadəsi, yaratdığı obrazların tarixi-mənəvi yaddaşla, soykök genetikası ilə sıx bağlılığı, yeni nəslin tərbiyəsində mühüm rolu tədqiqat işinin aktuallığını bir az da artırmış olur.

1950-ci ildə anadan olan, hələ on beş yaşında “Meşəbəyi” adlı lirik-satirik şeir və böyük gürcü şairi Şota Rustaveliyə həsr etdiyi ilk mətbu əsəri ilə ədəbi fəaliyyətə başlayan Zəlimxan Yaqub bu günümüzə qədər iyirmi-dən artıq kitab nəşr etdirmiş, müxtəlif mövzularda dəyərli əsərlər ortaya qoya bilmişdir. Əgər “Könlümün səsi”, “Yolum eldən başlanıb”, “Od aldığım ocaqlar”, “Biz bir eşqin butasıyıq” kitablarında ədib ətraf aləmdə baş verən həyat hadisələrini bir gənc yazar kimi heyranlıqla bədiiləşdir-məyə çalışmışdırsa, ”Şair harayı” adlı kitabla başlayan sonrakı yaradıcılıq nümunələrini vətən təəssübkeşliyi ruhu ilə yaradıcılığa gətirmişdir.

Bununla yanaşı, xalqımızın taleyüklü məsələləri, cəmiyyətdə mənəvi yetkinliyin daşıyıcısı olan ədəbi korifeylərimiz, tarixi şəxsiyyətlərimiz, xalqımızın ağır günlərini çiyinlərində daşıyan qəhrəmanların mübarizlik ruhu da yardıcılıqda əksini tapır. Bütün bunlar isə şairin keçdiyi yaradıcılıq yolu, mənəvi-əxlaqi, ictimai-siyasi, üslubi-poetik axtarışları haqqında aydın təsəvvür yaradır. Kiçik həcmli şeirlərdən tutmuş irihəcmli monumental əsərlərə qədər yaradıcılığının bütün mənzərəsini xalq mənəviyyatına, milli ruh və yaddaş dərinliklərindən gələn mentalitet kefiyyətlərinə həsr etməsi

onu, sözün həqiqi mənasında, xalq şairinə çevirmişdir. Oxucusu olan hər bir insana vətən qarşısında vətəndaşlıq mövqeyinin doğru istiqamətini göstərən Zəlimxan Yaqub haqlı olaraq hazırki şəraitdə milli mənəvi dəyərlərə qayıdış problemlərinin xüsusi əhəmiyyətini yaradıcılıq boyu vurğulamağa çalışır. Bu cəhət Zəlimxan Yaqub barədəki araşdırmalarımızı daha da aktuallaşdırır.

**Mövzunun tədqiq tarixi**. Zəlimxan Yaqubun ədəbi fəaliyyəti ilə bağlı bir çox tənqidçilər məqalə, kitab və monoqrafiyalar yazmışlar. O cümlədən, Əminə Hüseynova "Zəlimxan Yaqubun yaradıcılığı" mövzusunda fəlsəfə doktoru dissertasiyası müdafiə etmiş və eyni adlı monoqrafiya nəşr etdirmişdir. Bununla yanaşı, "ədəbiyyatımızın, elmimizin görkəmli nümayəndələri Süleyman Rəhimov, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Muğanna, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Tofiq Bayram, Nəriman Həsənzadə, Budaq Budaqov, Xudu Məmmədov, Pənah Xəlilov, Camal Mustafayev, Yaşar Qarayev, Tofiq Hacıyev, Şamil Qurbanov, Nizami Cəfərov, Qəzənfər Kazımov və başqalarının Zəlimxan Yaqubun ədəbi portreti və yaradıcılığı haqqında məqalə və şeirləri nəşr olunmuş, səmimi ürək sözləri deyilmiş, bu isə onun yaradıcılıq üfüqlərinin genişlənməsinə güclü təkan vermişdir"[1]. Eyni zamanda, Əmirxan Xəlilovun "Olimpə gedən yolda", Rüstəm Kamal və Ramiz Göyüşovun birgə yazdıqları "Sazla havalıyam, sözlə diriyəm" kitabı da Zəlimxan Yaqubun yaradıcılığının bu və ya digər məqamlarını açıqlamağa kömək etmişdir. Lakin şairin xalq yaradıcılığı ilə bağlı konkret tədqiqat işi ilk dəfədir ki, qarşıya qoyulur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti Zəlimxan Yaqubun lirik və epik yaradıcılığıdır. Buraya onun lirik əsərləri, dastan xarakterli nəsr və poemaları daxildir. Sözügedən obyekt əsasında Zəlimxan Yaqubun bir şair kimi milli-mənəvi dəyərlərə bağlılığı, bu bağlılığın səbəb və təzahür formaları, folklor və etnoqrafiya realilərinin yaradıcılıqdakı inikasının bədii sistemə ideya-estetik təsiri kimi məsələlərinin araşdırılması isə tədqiqatın predmeti kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırmanın əsas məqsədi Zəlimxan Yaqub yaradıcılığını milli qaynaqlara bağlılıq istiqamətində

[1] Zəlimxan Yaqubdan yazılanlar / Məqalələr toplusu / redaktoru Musa Nəbioğlu. Bakı: Vətən, 2005, s.396

öyrənməkdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Zəlimxan Yaqub yaradıcılığında şifahi xalq ədəbiyyatının əsas səciyyəsini müəyyənləşdirmək və onun təzahür formalarını üzə çıxarmaq;
- Zəlimxan Yaqubun ədəbi irsinin milli qaynaqlara bağlılığını əhatə dairəsi baxımından təhlil etmək;
- Zəlimxan Yaqubun milli qaynaqlardan bəhrələnməsinin üsul və vasitələrini müəyyənləşdirmək, onların poeziyadakı funksiyalarını aydınlaşdırmaq;
- Sənətkarın yaratdığı xarakterləri milli yaddaş müstəvisi üzərində araşdırmaq, onların tarixi mənəvi genetikasını üzə çıxarmaq;
- Şairin folklor və klassik ədəbiyyat materialları əsasında yazdığı əsərlərinin mövzu və süjet qaynaqlarını, ideya-estetik səciyyəsini aşkarlamaq;
- Zəlimxan Yaqubun milli mənəvi sərvətlərə, tarixi kimlik, soykökə qayıdış məsələlərinə dair baxış və düşüncələrini dəyərləndirmək;
- Şairin xalq yaradıcılığına, aşıq sənətinə ustad el sənətkarlarının poetik irsi və bu sıradan olan digər milli dəyərlər barədəki ideyalarının ədəbi-mədəni və nəzəri- estetik əhəmiyyətini açıb göstərmək;
-Zəlimxan Yaqubun yaradıcılığında xalq həyatı ilə bağlı mərasim folklorunun və onun izlərinin, habelə etnoqrafik dəyərlərinin işlənmə məqamlarını araşdırmaq;
- Zəlimxan Yaqub poeziyasının milli səciyyəsi, xalq seir poetikasının strukturu ilə səsləşməsini üzə çıxarmaq və s.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiya işi müqayisəli-təsviri, müqayisəli-tarixi tədqiqat üsulu əsasında hazırlanmışdır. Araşdırmada filologiyanın, xüsusən də folklorşünaslığın elmi-nəzəri təcrübəsinə və müasir elmi prinsiplərinə istinad edilərək, məqsədyönlü tədqiqat aparılmışdır. Zəlimxan Yaqubun ömür və sənət yolunun araşdırmasına həsr olunmuş elmi-tədqiqat materiallarından da nəzəri mənbə kimi isitafadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Bu tədqiqat işində ilk dəfə olaraq Zəlimxan Yaqub yaradıcılığında milli özünüifadə problemi müstəqil tədqiqat predmeti kimi sistemli şəkildə araşdırılmış və şairin milli-mənəvi qaynaqlara, soykök və tarixi kimlik məsələlərinə münasibəti elmi-nəzəri baxımdan dəyərləndirilmişdir.

Zəlimxan Yaqub şeirinin milli səciyyəsi həm şeir poetikasının strukturu, həm də milli dəyərlərin tarixi genetikası boyu izlənərək vahid kontekst daxilində təhlil olunmuşdur.

İlk dəfə olaraq "dodaqdəyməz müxəmməs" janrında lirik şeir, dastan janrında epik əsər yazılı ədəbiyyat nümunəsi kimi təhlil olunmuş, elmi ictimaiyyətin müzakirəsinə verilmişdir.

Zəlimxan Yaqubun milli-mənəvi sərvətlərin qorunması və yaşadılması ilə bağlı ideyaları, eləcə də onun xalq mənəviyyatı, saz-söz qaynaqları, soykök, milli özünəqayıdış, tarixi kimlik problemlərinə dair sənətkar düşüncələri üzərində də sistemli elmi dəyərləndirmə işi aparılmışdır.

Şairin epik əsərlərində milli xarakterlərin mənəvi tarixi yaddaşımızdakı adekvatları ilə müqayisə edilərək yaradıcı təxəyyülünün keyfiyyət yeniləşmələri dəyərləndirilmişdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işi çağdaş Azərbaycan ədəbiyyatında, xüsusən də poeziyanın inkişafında mühüm rol oynamış Zəlimxan Yaqub yaradıcılığının milli-mənəvi zəminini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

Zəlimxan Yaqub şeirinin qaynaqlarını, onun bir milli yazar kimi bağlı olduğu dünyagörüş və ideya-estetik prinsiplərin dolğun mahiyyətini öyrənmək istəyənlər bu araşdırmanın nəticələrindən mənbə kimi istifadə edə bilərlər.

Tədqiqat işindən tədris materialı kimi də yararlanmaq olar.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi Lənkəran Dövlət Universitetinin Filologiya fakültəsinin Dil və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

Tədqiqatın başlıca müddəaları müəllifin çoxsaylı elmi məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiqatın ümumi səciyyəsi ifadə olunmuş, mövzunun elmi aktuallığı əsaslandırılmış, tədqiqatın obyekt və predmeti, tədqiq tarixi, metodoloji əsasları, məqsəd və vəzifələri, nəzəri və praktik əhəmiyyəti, işin aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Zəlimxan Yaqubun lirikasında xalq şeirinin təzahür formaları"** adlanır. Bu fəslin *"Zəlimxan Yaqub şifahi və yazılı ədəbiyyatın qovşağında"* adlanan birinci bölməsində vurğulanır ki, əsl şair araya-ərsəyə gətirdiyi əsərlərində mənsub olduğu xalqın ruhunu, düşüncəsini, həyat tərzini yaşatmalıdır. Belə olmayan halda yazıçı və şair xalq arasında gərəyincə tanına bilməz və onun araya-ərsəyə gətirdiyi yaradıcılıq nümunələri yarandığı kimi də unudulacaqdır. Çünki "qabaqcıl olmayan ədəbiyyat qabaqcıl ideyalar aşılaya bilməz"[2].

Ədəbiyyat tariximizdə məşhur olan ədiblərimiz istər lirikada və istərsə də epik yaradıcılıqda bu məsələyə həssaslıqla yanaşmış və bununla sağlıqlarında əbədiyaşar olmaları üçün zəmin yaratmışlar. Belə şairlərimizdən olan Zəlimxan Yaqub da lirikası ilə xalq qarşısında hesabat verməyə və bu imtahandan uğurla çıxmağa qadirdir. Ən azı ona görə ki, şair xalq dilinə və təfəkkürünə əsaslanan bir poeziya ortaya qoya bilmişdir. Bu poeziya tarixin süzgəcindən süzülüb gələn təfəkkür dünyamızın qaydalarını qorumaqla yanaşı, onun janr, forma və vəzn keyfiyyətini zənginləşdirmiş, fərdi yaradıcılıq axtarışları ilə onu yeni mərhələyə qaldırmışdır. Təsadüfi deyildir ki, Zəlimxan Yaqub şeiri müasir dövrümüzün həyəcanları ilə nəfəs alır, uğurları ilə sevinir. Bütün bunlar isə şairin içindən gələn təlatüm, şair kimi doğulan bir insanın ürək çırpıntılarıdır.

Zəlimxan Yaqub lirikasında xalq yaradıcılığı elementlərini axtarmaq əslində, şərti məsələdir, çünki şairin poeziyasında xalq yaradıcılığı ilə yazılı ədəbiyyatın sərhədlərini müəyyən etmək çox çətindir. Bəzi məqamlarda xalq yaradıcılığı üslubu, bəzi məqamlarda isə yazılı ədəbiyyata məxsus xüsusiyyətlər bu yaradıcılıqda özünü göstərir. Bu barədə Səlahəddin Xəlilov fikirlərini ümumiləşdirərək yazır: "Hərdən mənə elə gəlir ki, Zəlimxan Yaqubun yazdıqları onun özününkü deyil, xalq yaradıcılığıdır, Zəlimxan isə ancaq ifaçıdır. Yeni dövrün Zəlimxan şifahi ədəbiyyatla yanaşı, yazılı poeziyamızı da əvvəlcə öz fenomen hafizəsində, sonra isə "mən"ində ehtiva edir... Zəlimxan burada vəhdət missiyasını üzərinə götürür, şifahi və yazılı ədəbiyyatımızı vahid kontekstə salır"[3]. Tədqiqatçı Ə.Hüseynova isə yazır: "Azərbaycan yazılı ədəbiyyatına səmimi

---

2 Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, 167 s.

3 Zəlimxan Yazubdan yazılanlar / Məqalələr toplusu / redaktoru Musa Nəbioğlu. Bakı: Vətən, 2005, s. 186-187

bir hörmətlə yanaşıb ondan faydalansa da, Z.Yaqubun folklora təsiri daha güclüdür”[4].

Zəlimxan Yaqub yaradıcılığında xalq yaradıcılığının təzahürü müxtəlif istiqamətlərdə əksini tapmışdır. Lakin bu müxtəliflik ansambl kimi vəhdət təşkil edərək ümumi yaradıcılığın qayəsini üzə çıxarır. Heç kəsə sirr deyildir ki, şair saza, sözə bağlı bir insandır və şübhəsiz ki, əsərlərində aşıq yaradıcılığının izləri daha qabarıq olacaqdır. Əslində bunu danmaq mümkün deyildir. Görüşlərin birində Zəlimxan Yaqubun saza sarılarkən dediyi aşağıdakı ifadələr gəldiyimiz qənaəti təsdiqləyir: “Məni aşıqlarla qarışdırmayın. Aşıqlar başqa cür ifa edir, şair başqa cür. Mən şair olaraq duyğularımı kökləmək üçün saza müraciət edirəm”. Təbii ki, şair ifa etdiyi saz havalarında aşıqlardan geri qalmır. Lakin söz sənətkarının qeyd etdiyi məqamlar əsl həqiqətdir. Şair yazacağı əsərlərə, dünyaya gətirəcəyi duyğulara, ifadələrə saz ruhu, saz deyimi bəxş edəcəkdir. Məhz ona görə də çox zaman Zəlimxan Yaqub şeiri aşıq şeiri ilə səsləşir. Hətta Zəlimxan Yaquba aşıq deyənlər də olur. Bu yerdə akademik Budaq Budaqovun Zəlimxan Yaqub haqqında fikirləri yada düşür: “Zəlimxanı ancaq aşıq kimi tanıyanlar öz fikirlərində qalsınlar. Mən buna etiraz etmirəm. Şairin ruhuna hopan insanı, sazı özündə tapan adamı sazdan ayırmaq olarmı və son anda ona aşıq demək olarmı? Yox ki, yox!... Aşıqlar xalqımızın mənəvi aləmini zənginləşdirmiş, klassik poeziya ilə aşıq şeiri arasındakı Aşıq Ələsgər kimi möhtəşəm körpü yaratmışdır. Z.Yaqub şairdir”[5]. Zəlimxan Yaqub Azərbaycan poeziyasının korifey sənətkarları cərgəsində qərarlaşan ədiblərimizdən biridir. Onun yaradıcılığı yazılı ədəbiyyatın özünəməxsus məziyyətlərini Nizami, Füzuli, Vaqif, Vurğun məktəblərindən alaraq gələcək nəslə ötürməkdə olan daha bir sənət məktəbidir.

Biz yuxarıda şairin sevgi aləminə təsadüfən müraciət etmədik. Klassik və xalq ədəbiyyatından qaynaqlanmaqla yaradılan nümunələr əslində şairin keçmişlə gələcəyin qovşağını birləşdirən bir söz sərrafı, söz ustası olduğunu göstərməkdədir. O, sözü bir memar kimi yonmaqla gah sevgi, gah kədər, gah da həyəcan doğuran məqamları həssaslıqla oxucuya çatdırmağa çalışmışdır. Əslində, tarixən də bu belə olmuşdur. Bədii söz böyük ustadların kəlamında həmişə qüdrətli vasitə, mənəvi silah kimi

---

[4] Hüseynova Ə. Zəlimxan Yaqub yaradıcılığı. Bakı: ADPU, 2006, s. 26

[5] Zəlimxan Yazubdan yazılanlar / Məqalələr toplusu / redaktoru Musa Nəbioğlu. Bakı: Vətən, 2005, s. 137

mühüm əhəmiyyət kəsb etmiş, dərin və bəşəri mənalar daşımışdır. Sənətkar kamalının qüdrətindən yaranan, həyatilik və şeiriyyət kəsb edən bədii söz onun ilham çeşməsində yoğrulur, ürəyindən hərarət, nəfəsindən həyat eşqi alaraq gözəlləşir, ülviləşir. Bir ədəbiyyat nəğməsinə çevrilərək könüllərə yol açır. Buna görə də tanınmış sənət adamları bədii sözün qüdrətindən istifadə etməklə ölməz sənət əsərləri yaradaraq, ədəbi xəzinəmizi və söz dünyamızı öz inciləri ilə bəzəmişlər. Zəlimxan Yaqub dühası da belələrindəndir. Elə bu məqamda dediklərimizin təsdiqinə aid bir faktı açıqlamaq yerinə düşərdi. Şairin 50 illik yubileyi ilə əlaqədar Azərbaycan xalqının böyük şəxsiyyətlərindən biri olan və öz zamanına görə dünya şöhrəti qazanmış Heydər Əliyevin təbriknaməsində oxuyuruq: ”Hörmətli Zəlimxan Yaqub!.. Siz müasir ədəbiyyatımızda Azərbaycanın zəngin seir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlardansınız. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə siz Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmısınız”[6]. Zəlimxan Yaqub yaradıcılığını xalq seirinə yaxınlaşdıran və onda xalq ruhu yaradan cəhətlərdən biri də Borçalı aşıq mühiti ilə bağlı olması idi. Buna görə də Zəlimxan Yaqub yaradıcılığında aşıq şeiri öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Belə ki, aşıq şeiri aşıq ruhlu yazılı ədəbiyyat nümayəndəsinin yaradıcılığında yeni məna, yeni keyfiyyət kəsb etmişdir. Digər tərəfdən aşıq şeirinin Zəlimxan Yaqub yaradıcılığında özünə yer tapması onun doğulub boya - başa çatdığı bir məkan üçün təbii hal sayılır. Bu barədə Ə.Xəlilovun fikirləri maraqlıdır: “Azərbaycan şairi Zəlimxan Yaqub dövrümüzün ən çox sevilən, oxunan və sayılan şairlərindən biridir. Cəmiyyətimizin elə bir üzvü yoxdur ki, onu tanımasın, sevib qiymətləndirməsin, haqqında qürurla danışmasın. Bu, əlbəttə, şair üçün ən böyük səadətdir. Bəs onu sevdirən, həqiqi sənətkar fövqünə qaldıran, xalqın simpatiyasına çevirən ümdə cəhətlər hansılardır? Əlbəttə, o, ağır Borçalı elinin sazlı-sözlü, şairli-aşıqlı bir kəndində-qədim Kəpənəkçidə dünyaya göz açmışdır. Göyçə mahalının sənət məktəbinin varisi kimi tanınan Aşıq Əmrah, Hüseyn Saraclı, Aşıq Kamandar kimi

---

[6] Zəlimxan Yazubdan yazılanlar / Məqalələr toplusu / redaktoru Musa Nəbioğlu. Bakı: Vətən, 2005, s. 3

şəxsiyyətlərin əhatəsində ərsəyə gəlmişdir”[7]. Ona görə də Zəlimxan Yaqubun aşıq şeirləri digər nümunələrə nisbətən çoxluq təşkil edir və onun bu ruhda meydana gətirdiyi əsərlər, sözün əsl mənasında, poeziya, eyni zamanda milli təfəkkürdə özünəqayıdış məsələlərinə ciddi təkan verməkdədir. Şair yaradıcılığı boyu təkcə aşıq şeirinə və aşıq sənətinə maraq göstərməmiş, həm də bu sənəti yaradan insanların şəxsiyyətinə böyük ehtiram bəsləmişdir.

I fəslin *“Aşıq şeirinin şəkil və üslub xüsusiyyətlərindən faydalanma”* adlanan ikinci bölməsində Azərbaycan şeirinin poetik üslubu xalq danışıq dilinin bədii imkanlarına əsaslandığı vurğulanır. Tarix boyu ərəb-fars dillərinin güclü təzyiqi altında olsa da, bu üslub milli düşüncə materialına söykənən qüdrətli bir ifadə modeli yarada bilmişdir. Zaman keçdikcə o, lirik üslubun xalq yaradıcılığı dayaqlarını möhkəmlətdi, yeni-yeni ölçülər, şəkillər formalaşdı[8]. Heca vəzni əsasında yaranıb-inkişaf edən bayatı, gəraylı, qoma, təcnis və bu kimi janrlar tədricən xalq yaradıcı təxəyyülünün ifadə formalarını təşkil etdi. Zəlimxan Yaqubun da xalq şeiri üslubunda yazdığı əsərləri içərisində qoşmanın xüsusi çəkisi vardır. Bu onunla izah edilir ki, qoşma daha geniş poetik imkanlara malikdir. “Qoşma xalq, aşıq şeirinin ən çox yayılmış formasıdır”[9]. Qoşmanın həyat hadisələrinin ifadə edilməsində, habelə onun dinləyici tərəfindən dərk olunmasında müstəsna əhəmiyyəti vardır. Məhz bu xüsusiyyətləri nəzərə alan şair əsərlərini yaradarkən qoşma formasına üstünlük vermiş və yeri gəldikcə ondan yaralanmağa çalışmışdır. Akademik İsa Həbibbəylinin dili ilə desək, “Z.Yaqub şeirdə əksər məqamlarda qoşma dili ilə danışır”[10].

Qığılcım ocağın bayrağından qopar,
Odun məhəbbəti köz dilindədi.
Him-cim, kirpikçalma işarə, eyham,
Baxış dilindədi, göz dilindədi

Yorulmaz köhnələni, büdrəməz atı,
Ocaqdı, torpaqdı ömrü, həyatı,
Zəlimxan nə desə-qoşma, bayatı,

---

[7] Xəlilov Ə. Olipmə gedən yolda. Bakı: Azərnəşr, 2005,174 s.
[8] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, II cild. Bakı: Elm, 2006, s. 221
[9] Əfəndiyev P. S.Vurğun və xalq yaradıcılığı. Bakı: Yazıçı, 1992. s. 39
[10] Zəlimxan Yaqub ədəbi düşüncədə / Məqalələr toplusu / redaktoru Musa Nəbioğlu. 2 cilddə, I cild. Bakı: Vətən, 2009, s.19

Zəlimxan nə yazsa, saz dilindədi[11].

Şairin yaradıcılığında qoşmalar mövzusuna görə bir-birindən fərqlənir. Bu, ilk növbədə, şairin sənətkarlıq xüsusiyyətlərindən irəli gələn məsələdir. Klassik yaradıcılıqda olduğu kimi Zəlimxan Yaqub poeziyasında da məhəbbət mövzulu qoşmaların mövcudluğu qabarıq şəkildədir. Xalq ədəbiyyatında əksini tapdığı kimi şairin qoşmalarında məhəbbət mövzusu dəyərlərimizə uyğun olaraq təbiət hadisələrinə və ya digər hadisələrə müraciətlə ifadəsini tapır. Bunun üçün lirik qəhrəman gah bənövşə, gah kəklik, gah da ceyrana müraciətlə fikrini çatdırmağa çalışır. Bəzən sevgilinin tellərinə xitabən məqsədə nail olunur. Məsələn, "Ahu kimi gözlərin" misrası ilə başlayan xalq mahnısı, Qurbaninin "Bənövşə", Ələsgərin "Gözəl sənin nə vədəndir" misrası ilə başlayan "Tellərin" gəraylısı gəldiyimiz qənaətə misal ola bilər. Təsadüfi deyildir ki, Zəlimxan Yaqub şeirində də bu ənənə özünəməxsus qaydada qorunmaqdadır.

Yenə nə nalədir, yenə nə səsdir,
Nədir o çəkdiyin haray, a tellər ?
Yenəmi ayrıldı Gəncədən Kərəm,
Yenəmi dağıldı saray, a tellər?

...Şair Zəlimxana doğmadır adın,
Qəddar düşmənisən sənətə yadın.
Sən bizi Allahdan az yandırmadın,
İnsafı gətirsək araya, tellər[12].

Göründüyü kimi, şairin "Tellər" qoşmasında məhəbbət mövzusu milli adət-ənənələrimizə uyğun şəkildə ifadəsini tapmışdır. Hətta xalqımıza aid olan bu adət ailə-məişətdə də görünməkdədir. Adətən qadının öz ərinin adını birbaşa çəkməsi və ya əksinə məqbul sayılmır. Bu dəyərlər "Kitabi-Dədə Qorqud" dastanında da ifadəsini tapır. Dirsə xan xanımına müraciət edərək qeyd olunan "qayda"lara əməl edir.

Zəlimxan Yaqub qoşmalarında təbiət mövzusunun ifadəsi onun yaradıcılığının rəngarəngliyindən xəbər verir. Şair qoşma janrı ilə təbiət təsvirlərinə müraciət etməklə bir neçə uğuru eyni zamanda qazanmış olur. Birincisi, qoşma ilə xalq yaradıcılığının ənənələrini yazılı ədəbiyyata gətirərək uzunömürlülüyünə bir daha zəmanət vermiş olur. İkincisi, insanla

---

[11] Yaqub Z. Mən bir dağ çayıyam. Bakı: Şərq-Qərb, 2006, s. 308
[12] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2006, s. 161

təbiətin qarşılıqlı münasibətinə yeni məna verir. İnsanda təbiətə qarşı humanist baxışlar yaratmağa nail olur. Bu isə təbiəti qorumaq kimi vacib bir əməlin həyata keçməsinə şərait yaradır. Üçüncüsü, şair xalqının övladı kimi, torpağının da yetirməsidir. Əsində, şair belə məqamlarda təbiətlə bağlı xalqımızın əski inam və baxışlarını təbiətə müraciət etməklə özünəməxsus şəkildə ifadə edir. Ədibin "Baharın gəlişi" qoşmasında qeyd etdiyimiz məqamlar poetik dillə öz əksini tapmışdır:

Yenə təbiətin gəlhagəlidi,
Torpağın tükənməz sərvətinə bax!
Arının çiçəklə öpüşməsinə,
Bülbülün budaqda söhbətinə bax!

Açılıb dağların çatılan qaşı,
Sevincdən süzülür gözünün yaşı.
Toxum dimdiyində qaldırır daşı,
Darının dağ boyda qüdrətinə bax![13]

Göstərilən nümunədə Azərbancan təbiəti və bu təbiətin yaz mövsümündəki görünüşü öz əksini tapmışdır. İnanmaq çətindir ki, hər hansı Azərbaycan vətəndaşı Zəlimxan Yaqubun qeyd olunan əsərini oxuyarkən qeyri-iradi olaraq yurdumuzun baharını xatırlamasın və şairin əsərdəki məqamları necə yerli-yerində işlətməsini heyranlıqla qarşılamasın.

Allah vergisidir hər gül, hər çiçək,
Öpür hər damlası, oynadır külək.
Baxırsan, qızarır qız yanağıtək,
Gülün həyasına, ismətinə bax! [14]

Şair təbiətin mənzərəsini çəkməkdə mahirdir. Söz sənətkarının Azərbaycan təbiətinə, onun gözəlliyinə həsr etdiyi rəssamlıq bacarığı adamı heyran qoyur. Yalnız istedadlı şair kiçik bir şeirlə təbiətin simasını dolğun təsəvvür və tərənnüm etməyə qadirdir. Nümunədəki şeiri oxuyub qurtardıqdan sonra bir daha dərk edirsən ki, bu qoşma təbiətin təsviri baxımından ən yüksək estetik meyarlara cavab verən bir sənət əsəridir.

Şair adi, sadə sözlə təbiəti elə əlaqələndirmiş, elə mənalandırmışdır ki, oxucu qarşısında sanki ecazkar bir aləm açılır. Lirik şeirin gözlə, təsvirlə izah edilə bilməyən qüdrəti də məhz bundadır: canlı, təsirli bir löhvə, əhval-ruhiyyə yaratmaq, insan qəlbini təlatümə gətirmək! Zəlimxan Yaqub şeiri

---

[13]Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2006, 78 s.
[14] Yenə orada, s.78

məhz belə bədii təəssürat yaratdığı üçün nəinki solmaz, hətta təravətini daim qoruyacaqdır. Çünki şairin poetik təfəkkürünün məhsulu olan əsərlərdə hiss-həyəcan, pafos vardır. V.Belinskinin dili ilə desək, "hər bir poetik əsər gərək pafos aşılamış olsun"[15].

Zəlimxan Yaqub poeziyasında ictimai məzmunlu qoşmaların mövcudluğuna gəldikdə deyə bilərik ki, Azərbaycanın ötən əsrin sonlarındakı vəziyyəti, belə ki, torpaqlarımızın işğalı, ardı-arası kəsilmədən ölkə vətəndaşlarına qarşı yönəldilən terror və soyqırım siyasəti, ən nəhayət, ölkə ərazisinin parçalanması səbəb kimi göstərilə bilər. Şairin "Bütöv Azərbaycan dünəndə qaldı, bu gün mənə çatıb paralanmışı"[16] fikri gəldiyimiz nəticəni təsdiq etməyə imkan verir. Xalq dərdi, təcavüz nəticəsində sadə insanların iztirabları, onların köməksizliyi, qərib-qürbət dolu nisgilliyi Zəlimxan Yaqub yaradıcılığında dərin iz buraxmışdır. Bu baxımdan humanist və həssas şair hər bir haqsızlıqdan inciyir və həyəcan keçirir. Bu da təbii haldır. Çünki yüksək mənəvi ideala sadiq olan bütün görkəmli sənətkarların yaradıcılığında dövrün ictimai haqsızlıqlarından narazılıq bu və ya başqa şəkildə öz ifadəsini tapmışdır. Söz sənətkarları insan mənəviyyatının sevgi aləminə qapılıb məhəbbət, hicran və vüsal iztirabları ilə məşğul olanda da cəmiyyətdəki çatışmamazlıqlara göz yummamışlar. Zəlimxan Yaqub qoşmalarında da mütərəqqi duyğular ictimai haqsızlığın ziddinə yönələn bir silahdır. Lakin şairin bu etirazı başqalarından fərqli olaraq nikbin notlarla köklənir. Mövcud hüquqsuzluğa son qoymaq üçün aktiv olmalı, vəziyyəti düzgün qiymətləndirməyi əhəmiyyətli hesab edir. Məhz bu məqamda Azər Turanın Zəlimxan Yaqub barədə araşdırmaları yada düşür: "Qarabağ ərəfəsindəki millətimizə ünvanlanmış ciddi çağırışın əks- sədası olan "Döyüşən türk, oyanan türk, qalxan türk"ü mütaliə etdikcə düşündüm ki, ictimai həyatımızda 20 Yanvar müsibətindən sonra Bakıya, Qara Yanvara mərsiyələr qoşmaqdansa, vətəndaşımızın "dəli bir ağlamaq keçir könlümdən" havasına kökləndiyi, yaddaş ekologiyasının zəhərləndiyi kədərli bir macalda belə şeirlər yazmaq milləti səfərbər etmək baxımından çox əhəmiyyətlidir. Bəzən tarixin elə məqamları olur ki, poeziya ruhun vəsiləsinə çevrilir, topluma yaşamaq və var olmaq duyğusunun klassik məşqlərini keçir, millətin ruhunu minordan majora, qərənfildən mərmiyə dönüşdürməyi bacarır. Poeziyamızda inilti və 20 Yanvardan sonrakı

[15] Belinski V.Q. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979, s. 143
[16] Yaqub Z. Mən bir dağ çayıyam. Bakı: Şərq-Qərb, 2006, s. 54

psixolojimiz üçün bəlkə də yeganə qorxulu tendensiyasını həm də Zəlimxan Yaqubun şeirləri ortadan qaldırdı”[17].

Göründüyü kimi, çağdaş şeirimizin inkişafında müstəsna zəhməti olan Zəlimxan Yaqub yaradıcılığında qoşma janrı həyat hadisələrinin bütün məqamlarında inikas funksiyasını yüksək səviyyədə icra edə bilmişdir.

Məlumdur ki, qoşmanın bir çox şəkilləri də vardır ki, ədəbiyyatşünaslıqda tədqiq olunmuşdur. Ümumi rəydən gələn nəticə belədir ki, qoşma janrının ustadnamə, vücudnamə, cahannamə və s. kimi şəkilləri vardır. Lakin qoşmaların bir şəkli kimi ən məşhuru ustadnamə hesab edilir. Təsadüfi deyildir ki, Zəlimxan Yaqub yaradıcılığında qoşmanın bu şəkli digərlərinə nisbətən çox rast gəlinir.

Zəlimxan Yaqub poeziyasını zənginləşdirən aşıq şeirinin janrlarından biri də gəraylıdır. Xalq ədəbiyyatının oynaq şəkillərindən olan bu janr yazılı və ya şifahi ədəbiyyata aidliyi baxımından mübahisə doğurmuşdur. Klassik şairlərimizin və sonrakı dövrlərdə yaşamış, məsələn, S.Vurğun və onun müasirlərinin poeziyasında da gəraylı öz əksini tapmışdır. Elə Zəlimxan Yaqub lirikasında ona təsadüf etməyimiz buna sübutdur. Lakin bir məqamı yaddan çıxarmaq lazım deyil ki, gəraylı şifahi xalq ədəbiyyatının, xüsusilə aşıq şeirinin nümunəsidir və daim yazılı ədəbiyyatı yaradan ədəbi şəxsiyyətlərimiz öz ahəngdarlığı və oynaqlığı ilə seçilən bu janra öz yaradıcılıq tələbatları üçün müraciət etmişlər. Xalq ədəbiyyatına aid olan təcnis janrı da bu qəbildəndir.

Uzun zaman həm şifahi, həm də yazılı ədədbiyyatda xüsusi bacarıq tələb edən təcnis Z.Yaqub yaradıcılığında da əksini tapmışdır. Şairin yaradıcılığında mövcud olan təcnislər daha çox bayatı şeiri şəklindədir. Şübhə yoxdur ki, ədəbiyyatımızın ilkin məqamlarında bayatı sadə və yadda qalan, oynaq şeir forması olmuşdur. Bu isə şifahi şəkildə yaranan yeni-yeni nümunələrin inkişafına təkan vermişdir. Folklorşünas Vaqif Vəliyev yazır: “Cinas qafiyələrin tarixi bayatıların tarixi qədərdir. Cinas qafiyə bayatılara oynaq ahəng, incə və bədii bir musiqi axıcılığı verir. Cinas qafiyə seçmək, zəngin söz ehtiyatına malik olmaq, dilin incə xüsusiyyətlərini bilmək, ondan məharətlə istifadə etməyi bacarmaq deməkdir”[18].

---

[17] Azər Turan. Əzəl-axır dünya türkün dünyası. Bakı: Vətən, 2007, s. 49

[18] Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, s.195

İstənilən şeir şəklində cinas qafiyələr yaratmaq mümkündür. Ancaq qoşma, gəraylı, bayatı və s. kimi şeir şəkillərində bu nisbətən üstünlük təşkil edir.

Zəlimxan Yaqub yaradıcılığında bayatı şəkilli təcnislərin mövcudluğu da bu baxımdan təsadüfi deyildir:

Qiblə döş, qiblə sinə,
Qiblənin qibləsi nə?
Kafər ayağı dəydi,
Yaxşının qibləsinə[19].

Zəlimxan Yaqub yaradıcılığında təsadüf olunan cinas qafiyələr özünəməxsus yaradıcılıq tərzinin məhsuludursa, eyni zamanda bədii dəyərlərin ötürülməsi baxımından növbəti bir mərhələdir. Heç şübhəsiz ki, Zəlimxan Yaqub bir şair olaraq klassik irsimizdə mövcud olan ədəbi qaynaqlarımıza bələd olmuş və onun məktəb kimi əhəmiyyəti və məsuliyyətini nəzərə almışdır. Yazdığı hər bir əsəri xalq şeiri ənənələri çərçivəsində araya-ərsəyə gətirməklə yanaşı, onun yeni bir poetik səciyyə daşımasına da əhəmiyyət vermişdir. Zəlimxan Yaqubun "Gəlsin" başlıqlı müxəmməsi də məhz belə əsərlərdəndir:

Səhər-səhər seyr eyləyək,
Dağda yatan qarı, gəlin.
Asta-asta yeriş yeri,
Gəl şad eylə yarı, gəlin.
Can dedikdcə, can eşidək,
Həyatından yarı, gəlin.
Ağ diyarın, ağ sinənin,
Ələ dəysin narı, gəlin.
Yarıyaq, yaddan çıxaraq
Hər dərdi, azarı, gəlin [20].

Elmi ədəbiyyatda müxəmməsin də yazılı və şifahi xalq ədəbiyyata mənsubluğu barədə ziddiyyətli məqamlar vardır. Dərsliklərdə onun yazılı ədəbiyyata məxsusluğu göstərilirsə,[21] başqa mənbələrdə isə onun xalq yaradıcılığına məxsusluğu vurğulanır: "Bu şəkil aşıq poeziyasında geniş

[19] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2006, s. 146
[20] Yenə orada, s.16
[21] Sadiq Ş. Ədəbiyyat. Bakı: Elm, 2007, s. 6

yayılmışdır. Həm orta, həm də sonrakı əsrlərdə aşıqlar ondan istifadə etmişlər. Müxəmməsi bəzən klassik poeziyadan gəlmə hesab edənlər də vardır. Lakin aşıq şeirinə, bizcə, bu, xalq poeziyasından gəlmiş, orta əsrlərdə ondan mükəmməl şəkildə istifadə olunmuşdur”[22].

Əlbəttə, bütün bu fikirlər ədəbiyatımızın inkişafına xidmət edən məqamlardır. Hər bir tədqiqatı bu baxımdan alqışlamağa dəyər. Lakin bir faktı yaddan çıxarmamalıyıq ki, on altı hecadan ibarət olan müxəmməs yazılı ədəbiyatda öz göstəricilərinə, yəni “beşlik” sayılan şeir formasına, misraların düzümünə və qafiyə quruluşuna uyğundur. Xalq ədəbiyyatında isə müxəmməs şifahi şəkildə dilə asan yatmadığına görə sonradan sadələşdirilərək, hər misra iki hissəyə bölünmüşdür. Bu da onu göstərir ki, müxəmməs janrı yazılı ədəbiyyatdan şifahi ədəbiyyata keçmişdir.

Məlumdur ki, xalq ədəbiyyatımızda Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Əsəd və b. kimi aşıq və şairlərimiz müxəmməs janrında müxtəlif səpkidə əsərlər yaratmışlar. İndiyə qədər bu aşıq və şairlərin repertuarlarında ifa olunan adıçəkilən janr ən çox adi müxəmməs, ayaqlı, cığalı şəklində olmuşdur. Bu gün Zəlimxan Yaqub yaradıcılığında ifadəsini tapan bu şeir şəkli isə ədəbiyyat tariximizə müxəmməsin “dodaqdəyməz müxəmməs” növü kimi daxil olacaqdır.

Zəlimxan Yaqub poeziyasında müxəmməs şeir şəkli təkcə texniki göstəriciləri ilə yadda qalmır. Bu yaradıcılıq forması iki məziyyətinə görə dəyərlidir. Bunlardan biri, xalq yaradıcılığında çox qüvvətli olan bədii sözün təsiri, ikincisi isə onun müasir ruhda olmasıdır. Şair özü də müxəmməsində sənətin bu əsas, zəruri şərtlərindən olan sözün təsir qüvvəsinə çox fikir vermiş və bu işdə müvəffəqiyyət qazanmışdır. Təkcə ona görə yox ki, şair yeni janr, yeni çalar gətirməklə ədəbiyyatı zənginləşdirmişdir. Həm də şair insan həyatının ən emosional çağını şeir dili ilə verməsi ilə yaradıcılığına bir dolğunluq, bir reallıq gətirir. Şairin yaradıcılığında rast gəldiyimiz bayatılar, deyişmələr haqqında da eyni sözləri demək mümkündür. Çünki sənətkar xalq şeirinin müxtəlif formalarına müraciət etməklə yanaşı, onun poetikasına xüsusi önəm verən bədii təsvir və ifadə vasitələrindən də istifadə edərək yaradıcılığına zənginlik bəxş etmişdir. “Əlbəttə, bu zənginliyə malik olmaq, leksik materialdan düşərilik və daxili uyarlıq meyarı ilə bəhrələnmək məharəti sənətkarın

---

[22] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, II cild. Bakı: Elm, 2006, s. 252

yaradıcılıq taleyini də müəyyən edir. Bu poetik duyğu ədibin poetik istedadını mühüm keyfiyyət göstəricisi kimi, yaradıcılıq narahatlığı, söz axtarıcılığı ilə birləşib maraqlı bədii tapıntılara çevrilir. Xüsusilə son dövr yaradıcılığını diqqətlə nəzərdən keçirdikdə oxucuda belə bir inam hasil olur ki, şair dilimizə yaxşı bələd olan yetkin sənətkar səviyyəsində dayanır"[23].

Ədəbi dilimizin üslubi imkanlarına, poetik məna çalarlarına, zəngin sinonimikasına gözəl bələd olan Zəlimxan Yaqub şifahi və yazılı ədəbi dilimizə məxsus poetizmlərdən ustalıqla, yaradıcı şəkildə faydalanmış və bununla da ədəbi dilimizin zənginləşməsində, xəlqiləşməsində mühüm rol oynamışdır... Özü də maraqlı burasıdır ki, yaradıcılığının ilk dövründə təbiət və gözəllik mövzusunda yazdığı şeirlərdə epitetdən, təşbehdən, bədii sualdan istifadə edən Zəlimxan Yaqub ictimai-siyasi lirikaya kökləndikdə daha çox təzadlara, təkrirə və metaforaya müraciət edir[24].

Girmə bu meydana soyuq ürəklə (epitet)
Köhnə dəmir kimi qızırsansa, gəl (təşbeh)
Qarşını kəssə də qayalı dağlar, (metafora)
Qayadan damlatək sızırsansa, gəl[25]. (təşbeh)

Yaxud:

Eşqimlə dağ yarıb, daş oya bildim, (mübaliğə)
Bir gündə min bir gün yaşaya bildim. (mübaliğə)
Mən ki bu yükləri daşıya bildim,
Bu qoca dünyanın zor adamıyam[26]. (epitet)

Göründüyü kimi, yuxarıdakı nümunələrdə bədii təsvir vasitəsi kimi epitet, təşbeh, metafora, bədii ifadə vasitəsi kimi isə mübaliğə işlənmişdir. "Şair bəzən bir misrada və ya bir bənddə bir neçə uğurlu poetizm işlədir. Bu da şairin ədəbi dilimizə yüksək bələdliyinin və onu həyəcanlandıran, düşündürən mövzunun, problemin bütün incəliklərini, çalarlarını görmək və əks etdirmək bacarığının sayəsində mümkün olmuşdur"[27].

Kim keçərdi o keçdiyi yolları? (bədii sual)
Kim aşardı o aşdığı yolları? (anafora, epifora)
Kim vurardı o vurduğu xalları?
Əfsanəni, həqiqəti dinlədim,(bədii təzad)

---

[23] Abdullayev S. Dil və bədii qavrayış. Bakı: Yazıçı, 1984, s. 158
[24] Hüseynova Ə. Zəlimxan Yaqub yaradıcılığı. Bakı: ADPU, 2006, s. 97-98
[25] Yaqub Z. Mən öz dastanımı yazıb gəlmişəm. Bakı: Elm və təhsil, 2009, s. 55
[26] Yenə orada, s.127
[27] Hüseynova Ə. Zəlimxan Yaqub yaradıcılığı. Bakı, ADPU, 2006, s. 98

Bir məclisdə Ədaləti dinlədim![28] (metonimiya)

Yuxarıdakı nümunədə eyni vaxtda bədii sual, anafora, epifora, bədii təzad kimi məcaz növlərindən istifadə edilmişdir. Bu da ədibin poetik imkanlarının hansı mərtəbədə olduğunu bir daha nümayiş etdirir.

Birinci fəslin *"Zəlimxan Yaqubun yaradıcılığında mərasim folkloru və onun janr xüsusiyyətləri"* adlanan üçüncu bölməsində Zəlimxan Yaqubun poeziyasında inikas olunan mərasim elementləri, əslində ata-babalarımızın həyata baxışlarının, ibtidai görüşlərinin ifadəsi kimi təhlil edilir. Burada vurğulanır ki, ədəbiyyat tariximizdə mövqe tutan əksər şairlərimizin, eləcə də Zəlimxan Yaqubun poeziyasında əksini tapan mərasim elementləri milli düşüncənin ilkin qaynaqlarıdır. Yağışın yağması, günün doğması, çayların daşması və bu kimi təbiət hadisələri insanlar üçün anlaşılmaz olmuş və bu hadisələrin hansısa fövqəltəbii qüvvələrin təsiri ilə baş verdiyini düşünmüşlər. Zaman keçdikcə insan birlikləri təbiət hadisələrinin ramı üçün birgə oxuduğu nəğmə və icra etdiyi ayinlər meydana gəlmişdir. Onlara qalibiyyət gətirən inam və stimullar tədricən nəsildən nəsilə ötürülmüşdür. Məsələn, "Yada nəğmələri"ni insanlar quraqlıqdan yaxa qurtarmaqdan ötrü yayda oxumuşlar[29]. Kiçik nəğmələr kimi formalaşan xalq yaradıcılığı zaman keçdikcə böyük əfsanələrə, əsatirlərə, eposlara meydan açır. Bu nümunələr həyatı öyrənməyin yeni və məzmun cəhətdən daha bir üsulu idi. Daha sonra yazılı ədəbiyyata yol alan folklorun bu forması N.Gəncəvi, M.Füzuli, S.Vurğun və digər məşhur şairlərin yaradıcılığına yaraşıq verərək, nəhayət ki, günümüzün reallığında Zəlimxan Yaqub şeirində də özünə yer tapmışdır. Çünki bu dəyərlər xalqımızın elə genetik xəzinəsini yaratmışdır ki, yaradıcılıqda ondan yan keçmək mümkün deyildir. Bu baxımdan, mövsüm və məişət növləri ilə xarakterzə olunan mərasim folkloru[30] yeri gəldikcə Zəlimxan Yaqub yaradıcılığında əksini tapmışdır. Şairin əsərlərini təhlil etdikcə məlum olur ki, mövsümlə bağlı folklorumuzun daha çox "Novruz" bayramına aid ənənələri yaradıcılıqda üstünlük təşkil edir. Məlumdur ki, "Şərq xaqlarında kök salan"[31] Novruz bayramı el arasında eyni zamanda nicat günü kimi də yadda qalır.

---

[28] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2006, s. 159
[29] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, I cild. Bakı: Elm, 2002, s. 65
[30] Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, s. 91
[31] Qasımzadə F. Novruz bahar bayramı // "Kommunist" qəzeti, Bakı: 1988, s. 32

Dini mahiyyət daşımayan[32] bu bayram ərəfəsində qəm-qüssəli olmaq, küsülü qalmaq, pis danışmaq, qonaq üzünə qapı bağlamaq kimi bədbin əməllər pislənilir, əksinə, təzə geyinmək, mənəvi cəhətdən təmizlənmək, habelə insanları yoluxmaq, hal-əhval soruşmaq kimi nəcib əməllər təlqin olunur. Odur ki, Zəlimxan Yaqubun şeirlərinin birindən oxuyuruq:

Əridi həsrətim, açıldı buzum,
Cənnət ətri verdi çörəyim, duzum.
Getdi qar-boranım, gəldi Novruzum,
Allah üzümüzə baxdı, görüşdük...
Dünyanın nə gözəl vaxtı görüşdük[33].

Şairin mövsüm mərasimlərinə qarşı olan həssaslığı və onların yaradıcılığındakı inikasını məişət mərasimləri ilə səsləşən əsərlərinə də şamil etmək olar. Yəni, dərlərimizin ayrılmaz hissəsi olan toy və yas mərasimləri mövsümlə bağlı yaranan əsərlərindən heç də az deyil. Bu da təbii bir hadisədir. Çünki, bu elə bir hadisədir ki, hər bir ailədə baş verir. Məişətlə bağlı mərasimlər Şərq, onun ayrılmaz hissəsi olan Azərbaycan ailəsinin ən ümumi arzu və istəyini, qəm və kədərini özündə birləşdirir. Bu halda insan cəmiyyətin xeyir və şərində iştirak etməli, ictimai borcunu yerinə yetirməlidir. Zəlimxan Yaqub yaradıcılığında mövcud olan məişətlə bağlı yaranan lirik nümunələr iki qismə bölünür. Toy və yas mərasimləri ilə səsləşən şeirlər xeyrin və şərin təcəssümü kimi şairin yaradıcılığında xalqın düşüncə və həyatbaxışlarını özündə birləşdirir.

Xalq şairinin elə şeirləri də mövcuddur ki, orada xalqımızın xeyir və şər mərasimləri tam və dolğun şəkildə ifadə olunmuşdur. "Ağdam Qarabağın toy otağıydı" şeirinə fikir versək görərik ki, şair burada həm Ağdamın toyunu, həm də yasını əks etdirə bilmişdir:

Hər şirin zəngulə, hər şirin nəfəs,
Yeni bir dünyaydı, təzə bir həvəs.
Arifin içindən gəlirdi bu səs,
Ağdam Qarabağın toy otağıydı[34].

Bu şeir ümumən Azərbaycan xalqının etnoqrafik mədəniyyətini özündə əks etdirir. Birincisi, Ağdamın gözəl bir məmkələt, gözəl bir diyar olması şairin vətənpərvərlik baxışlarını biruzə verir, ikincisi, şeirdə Azərbaycan

---

[32] Rzayev N. Əcdadların izi ilə. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1992, s. 76
[33] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2006, s.9
[34] Yenə orada, s.110

toyu Ağdamın təsviri fonunda gizli planda işıqlanır. Təbiidir ki, "şirin zəngulə, şirin nəfəs" xalqın toy və bayramlarına təsadüf edilən məqamlardır. Bu toy-düyün mərhələsi sabahkı təzə həyata, yeni həyata, yeni bir ocaq, yeni bir həvəs verir. Üçüncüsü isə "toy otağı" başqa aləm kimi xalqımızın düşüncəsində, təfəkküründə yaşanan ən əziz yuva, yeni qurulan ocaq yeri kimi dəyərləndirilir. Hansı ki, hər bir ailə üzvü bu otağı təmiz, yaraşıqlı, gözəl görmək istərmiş və onu hər bir gəncə arzulamışlar.

Nə qızıl üzəngi, nə gümüş yəhər,
Nə çapan oğul var, nə qaşqa kəhər,
Yediyi zəhrimar, içdiyi zəhər,
Ağdam Qarabağın yas otağıdı[35].

"Ağdam Qarabağın toy otağıdı" şeirinin sonrakı bəndlərindən biri olan bu nümundə toydan deyil, yasdan bəhs edilir. Müxtəlif oyunlar, at çapmalar və s. ayinlərlə müşayiət edilən el toylarından fərqli olaraq Ağdamın yasa batmış indiki səssizliyi-işğalı yas mərasimi qədər ağırdır.

Mərasim folkloru xalqımızın təfəkküründə onun həyatabaxış və görüşlərinin təzahürü olan bir sıra başqa janrların meydana gəlməsinə səbəb olmuşdur. Belə ki, bu görüşlərin iz və əlamətləri çox qədim zamanlardan qalmış abidələrdəki, qəbirlərdən tapılmış qablardakı, alətlərdəki şəkillərdə, eləcə də şifahi xalq ədəbiyyatımızın mənşəcə çox uzaq keçmişlə bağlı janrlarında yaşayıb gəlmiş olan süjetlərdə, motivlərdə, zoomorfik və antropomorfik, kosmik surətlərdə görmək mümkündür. Buradan aydın olur ki, insanlar təbiət qüvvələri qarşısında aciz qaldığı bir zamanda məqsədə çatmaq və maneələri aşmaq üçün vasitələr axtarmış, həyat hadisələri arasında daxili bağlılığın olması etiqadına inanmağa başlamışlar. Zaman və təcrübə baxımından "uğur" qazanan insanlar təbiət hadisələrini dəf etmək üçün sözün, sehrin gücündən istifadə etməyə çalışmışlar. Beləliklə, insanların həyatında baş verən mövsüm və mərasim, ayinlərlə bağlı hadisələr, "eləcə də mifik qaynaqlar"[36] ilkin janrların yaranmasına şərait yaratmışdır. Bu gün də həmin etiqad və həyata baxışların izləri adət-ənənələrimizdə qorunmaqdadır. Buna baxmayaraq elmi ədəbiyyatda xalqımıza məxsus olan bu dəyərlərin araşdırılmasına az yer verilmiş və

---

[35] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2006, s.111

[36] Лосев А.Ф. Философия имени // Лосев А. Ф. Из ранних произведений. Москва: Правда, 1990, с. 195

ədəbi şəxsiyyətlərin yaradıcılığında onların istifadə dairəsinə dolğun münasibət göstərilməmişdir.

Elə bu məqamdan çıxış edən Bəhlul Abdulla yazır: “Şifahi söz sənəti xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrlə münasibətini dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir. Bu irsin janr və növlərinə dair yazılmış işlər az deyil. Bununla belə, hələ öyrənilməli və tədqiq olunmalı sahələr də çoxdur. Bu baxımdan, şifahi ədəbiyyatımızın ibtidai təfəkkür çağı ilə bağlı nümunələrini, xüsusilə sınama, ovsun, alqış və qarğışları araşdırmağa daha çox ehtiyac duyulur”[37].

Bundan sonra xalq dəyərlərimizin göstərilən məqamlarının təhlilini Azad Nəbiyevin araşdırmalarında görürük. O, milli mədəniyyətimizin tərkib hissəsi olan mərasim folklorunun müxtəlif ayinlərinin xarakterini nəzərə alıb, onları ayrı-ayrılıqda kiçik janrlar kimi təhlil etmişdir[38].

O, bu janra inancları, andları, alqış və qarğışları, əfsun, fal, türkəçarə, cadu, öyüd, yalvarışlar və s. aid etmişdir.

Zəlimxan Yaqub yaradıcılığında bu dəyərlərin yaşanması vaxtında və yerində atılmış bir addım sayıla bilər. Ən azı ona görə ki, bu dəyərlər zaman keçdikcə unudula, yaddan çıxarıla bilərdi. Amma şairin lirikasında onların inikası yaranacaq təhlükənin olmamasından xəbər verir:

Ağı qatan olmasın,
İştahama, aşıma.
Yandır üzərliyini,
Duzu çevir başıma.
Bir xətər toxunmasın,
Zehnimə, yaddaşıma.
Xeyir dua ver, ana![39].

Şairin “Xeyir-dua ver ana!” şeirində inancın bir neçə formasına rast gəlirik. Adətən uzaq yola çıxanda valideynlər xeyir-dua verir. İnanca görə xeyir-dua alan övlad çətinlik çəkməz. Bundan başqa el arasında nəzərə gəlmək, göz dəymək kimi əski inanclar da vardır ki, hal-hazırda öz əhəmiyyətini qorumaqdadır.

Şeirdə duz çevirmək, üzərlik yandırmaq məsələsi bu mənada ifadəsini tapmışdır. Xalq arasında bu ayin indinin özündə də həyata keçirilir. Adətə görə, göz, nəzər toxunan insana ya duz çevirər, ya da üzərlik yandırarlar.

---

[37] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif,1981, s. 90
[38] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. 2 cilddə, I cild. Bakı: Elm, 2002, 55
[39] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2006, s. 152

Şair poeziyasında xalqdan gələn ən ümumi dəyərlərdən biri olan and və qəsəmlərə də geniş yer verir. "Şairin andı" şeirində bu məsələlər bütövlükdə öz həllini tapır. "Allah evi! And içirəm. Ərənlərin canı haqqı! Mənim fikrim, mənim hissim, haqq yolundan dönməyəcək", - deyir [40].

Zəlimxan Yaqub poeziyasında mərasim folklorunun göstərilən janrları ilə yanaşı dualar, yalvarışlar, öyüd və təriflər, atalar sözləri və məsəllər də öz əksini tapır.

Şairin yaradıcılığındakı Allah sevgisi, dünyanın yaranması, insanın mifik baxışlarının ifadəsi, ailədə onun üzvlərinə münasibət kimi məsələlər *"Zəlimxan Yaqubun yaradıcılığında xalq fəlsəfəsi və etnoqrafik dəyərlər"* adlı dördüncü bölmədə təhlil olunur.

Dissertasiyanın **"Zəlimxan Yaqubun epik yaradıcılığında milli-mənəvi dəyərlər"** adlanan ikinci fəsli üç bölmədən ibarətdir. Birinci bölmə "*Zəlimxan Yaqub yaradıcılığında dastan ənənələri*" adlanır. Burada deyilir ki, Zəlimxan Yaqub sənətini yeni və baxımlı edən cəhətlərdən biri də şifahi xalq ədəbiyyatına məxsus olan dastan yaradıcılığının yazılı ədəbiyyata gətirilməsidir. Şair "Hüseyn Saraclı dastanı" ilə yazılı ədəbiyyatda novatorluq edərək ona şifahi ədəbiyyat üçün səciyyəvi olan ənənəvi dastan yaradıcılığını bəxş etmişdir. O, bir qədər də irəli gedərək bu yaradıcılıq növünü nəzmə çəkməklə oxuculara təqdim etmişdir. "Yunus İmrə dastanı" buna misal ola bilər. Elə buna görə də Zəlimxan Yaqubun ədəbi axtarışlarını, yaxşı mənada, təəccüblü və diqqətəlayiq hesab etmək olar. Düzdür, dastan xarakterli əsərlər yazılı ədəbiyyatda heç də az təsadüf olunan hadisə deyildir.

Böyük Nizaminin dərin təfəkkürlə güclü poetik ehtirasının vəhdətindən yaranan "Sirlər xəzinəsi" poeması özündə bir neçə dastanı birləşdirməkdədir. "Xosrov və Şirin" poeması da məhz məhəbbət dastanı fonunda ərsəyə gəlmiş bir əsər kimi yadda qalır. Lakin Nizami Gəncəvi də dastançılıq ənənəsini özündən əvvəlki ədəbi qaynaqlar vasitəsilə əldə etmişdir. Şübhəsiz ki, bu qaynaqlar "hələ də tam toplanmamış" [41] olsa belə, şifahi xalq ədəbiyyatına soykənmiş etibarlı mənbələr idi. Məhz bu cəhəti biz Nizami Gəncəvinin məlumatlarından təyin edə bilirik. "N.Gəncəvi qeyd edir ki, Xosrovla Şirin hekayəsi çoxdan dillər əzbəridir. Xüsusən bu hekayə Bərdədə məşhurdur və məni bu əsəri yazmağa həvəsləndirən də Bərdə

---

[40] Yaqub Z. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2006, s. 40

[41] Пропп В. Русская сказка. Москва: Наука, 1984, с. 26

qocalarıdır"[42]. Ancaq onu da vurğulamaq lazımdır ki, əgər Nizami və başqa söz sahiblərinin yaradıcılığında dastan kimi təqdim olunan əsər formal olaraq "dastan" adlanırdısa, əksinə, sözügedən şairin əsərlərində bu doğrudan-doğruya dastan təsiri bağışlayır. Bu barədə xalq yazıçısı Elçinin Zəlimxan Yaquba "Hüseyn Saraclı dastanı" ilə bağlı yazdığı açıq məktubunda deyilir: "Azərbaycan ədəbiyyatında şairlərin də, nasirlərin də, hətta sovet dönəmi "oçerk ustaları"nın da bəzən "dastan" adlandırdıqları bir çox nümunələrinin olmasına baxmayaraq "dastan" yalnız folklorumuzun janrı olaraq qalırdı... Sənin bu əsərin isə, mənə görə yazılı ədəbiyyatımızda "milli janr"ın yaranmasına səbəb olacaqdır" [43].

Zəlimxan Yaqubun epik poeziyasının böyük bir hissəsini dastan motivli əsərlər təşkil edir.

"Qurtuluş dastanı", "Yunus İmrə dastanı", "Böyük ömrün dastanı", "Hüseyn Saraclı dastanı", "Əlli yaşın dastanı" və bu qəbildən olan digər epik yaradıcılıq nümunələri heç də şifahi şəkildə yaranan eyniadlı əsərlərin yazılı variantı deyildir. Onlar fərdi poetik xarakterə əsaslanan orijinal yazılı ədəbiyyat nümunələridir. Ancaq xalq ədəbiyyatında olduğu kimi burada da bədii axtarış obyekti xalq həyatı və onu düşündürən məsələlərdir.

*"Zəlimxan Yaqubun epik yaradıcılığında tarixi həqiqətlərin bədii inikası"* adlı ikinci bölmədə son iki əsr boyu xalq həyatı ilə bağlı hadisələri özündə əks edən əsərlər təhlil olunur. Söz sənətkarının bu mövzudakı əsərlərini araşdırarkən Əmirxan Xəlilovun bir fikri yada düşür: "Azərbaycan şeirinin müasir dövrdəki ən parlaq simalarından olan Zəlimxan Yaqub xalqımızın mənəvi dünyasının poetik təzahürüdür. Zəngin və möhtəşəm tarixi olan xalq poeziyasının bağrından qopub gələn Zəlimxan Yaqub bu gün onun ən gözəl, çağdaş nümayəndəsidir"[44].

Zəlimxan Yaqub zəngin yaradıcılığı ilə xalqımızın mənəvi dünyasına baş vurmuş, tarixi həqiqətləri ilə nəfəs almışdır. Bu gün Zəlimxan Yaqub qədər xalq tarixini göynəyə-göynəyə əsərlərinin sətirlərinə köçürən ikinci bir şair və ya söz adamı tapmaq çətindir. Bir zaman onlarla poemaları ilə Azərbaycan həqiqətlərini bir epopeya şəklində ərsəyə gətirmək istəyən Səməd Vurğun "öz poeziyasında, lirik və epik əsərlərində doğma xalqın gözəl sifətlərini tərənnüm etməkdən, vətənin tərəqqisini qızğın bir ilhamla

---

[42] Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I cild. Bakı: Azərb.EA nəşri, 1960, s. 134
[43] Yaqub Z. Hüseyn Saraclı dastanı. Bakı: Şərq-Qərb, 2007, s. 3
[44] Xəlilov Ə. Olipmə gedən yolda. Bakı: Azərnəşr, 2005, s. 16

təsvir etməkdən doymamışdır”[45]. Hazırda Zəlimxan Yaqub da silsilə poemaları ilə bədii yaradıcılıqda poetik təfəkkürün yeni çalarlarını üzə çıxarmağa çalışırsa, digər tərəfdən əsərlərin praktiki əhəmiyyətini yüksəldərək onlara xalq həyatını və tarixini əks etdirən bədii formalar bəxş etmişdir. Bu məqamda prof.N.Şəmsizadənin bir fikri yada düşür: “Zəlimxanın şeirləri öz evində qonaq olan bir millətin hıçqırıqlarıdır” [46].

Zəlimxan Yaqub poeziyasında hər bir qələm təcrübəsi şair ürəyinin odu ilə ərsəyə gəlmişdir.

Əslində onun ürəyini alovlandıran əsas səbəblər xalqla bağlı təəssübkeşlik hisslərindən doğur. Bir tərəfdən təmsil etdiyi xalqının şanlı keçmişi, tarixi və ədəbi qəhrəmanları, güclü vətənpərvərlik ənənələri ilə nəsillərə örnək olan ata-babaların təsviri, bir tərəfdən isə böyük bir zəngin mədəniyyətə və mənəviyyata malik ola-ola köçkün və qaçqınlıq taleyinin yaradıcılıqda əvvəlkindən daha amansız hisslərlə xarakterizə edilir. Biz diqqət etsək görərik ki, ədibin “Göyçə dərdi”, “Zəlimxan qarğışı”, “Allahım, mənə bir ağsaqqal yetir”, “Azərbaycan oxusun”, “Ey vətən oğulları”, “Sizi qınamıram”, “O qızın göz yaşları” və s. kimi poemalarda qeyd etdiyimiz məqamlar öz həllini tapmaqdadır. Vətən torpaqlarının bölüşdürülməsi, xalqımıza qarşı ötən əsrin silsilə terror və işğal siyasəti bütünlüklə bu əsərlərin ana xəttini təşkil edir.

Zəlimxan Yaqubun epik yaradıcılığında xalq tərəfindən seçilən, dəyərləndirilən qəhrəmanlara geniş yer verilməsi məsələsi isə *“Zəlimxan Yaqubun epik əsərlərində xalq və qəhrəman problemi”* adlı üçüncü bölmədə araşdırılır. Burada aydınlaşır ki, xalq şairi həqiqətən əsərlərində xalq həyatını və düşüncələrini, arzu və istəyini işıqlandırmaqda qarşıya məqsəd qoymuş və buna nail olmuşdur.

Ədib xalq həyatında mühüm rol oynamış tarixi şəxsiyyətləri yeri gəldikcə yaradıcılığı boyu xatırladır. Belə qəhrəmanlara Cavanşiri, Babəki, Dədə Qorqudun timsalında oğuz qəhrəmanlarını, Koroğlunu, Qaçaq Nəbi və adını çəkmədiyimiz bir çox xalq qəhrəmanlarını misal göstərmək olar. “Allahım, mənə bir ağsaqqal yetir” poemasında bunun bir daha şahidi oluruq.

---

45 Zeynallı A. Səməd Vurğun sənəti. Bakı: Elm,1990, s. 188

46 Şəmsizadə N. Şairin tanrıya bəyanəti // “Azərbaycan müəllimi” qəzeti, 2 dekabr 1997

Ötən əsrlərin qəhrəmanları ilə yanaşı müasir qəhrəmanlar da bu poeziyada əksini tapmaqdadır. Bu mənada şairin "Qurtuluş dastanı", "Böyük ömrün dastanı" və "Əbədiyyət dastanı" poemaları daha maraqlı və əhəmiyyət kəsb edir. Hər üç əsər son dövr Azərbaycan həyatının güzgüsüdür. Xalqın çox ağır günlərində, ölkədə vətəndaş müharibəsinin yaranması və ölkənin bir neçə yerə bölünmə təhlükəsi qarşısında olan bir vaxtda xalqın-ağsaqqalların təkidi və xahişi ilə hakimiyyətə gələn Heydər Əliyevin obrazı və fəaliyyəti bu əsərlərin poetik mahiyyətini təşkil edir. Xalq kütləsini arxası ilə aparmağı bacaran Heydər Əliyev qısa bir zamanda ölkə ictimaiyyətinin rəğbətini qazanır. Erməni faşistlərinin törətdikləri qırğınlar bir andaca dayandırılır. Bütün dünyada hakimiyyətə qədərki şöhrəti bundan sonra da fəaliyyətində ona uğurlar qazandırır. Ölkədə baş verən daxili çəkişmələr tezliklə uğurlu siyasət nəticəsində aradan qaldırılır.

"**Nəticə**"də isə tədqiqatın əsas müddəaları ümumiləşdirilmişdir:

1. Şairin əsərlərindən aldığımız qənaətlərindən ən birincisi onun aşıq yaradıcılığının bilicisi, saz havalarının mahir ifaçısı və yeri gəldikcə onun tükənməz xəzinəsindən məharətlə faydalanmasıdır. Məhz bu cəhətlər Zəlimxan Yaqubu tədricən xəlqi bir şairə çevirməyə başlamışdır. Onun irili-xırdalı əsərləri xalq təfəkkürü və düşüncəsi ilə nəfəs aldığından xalq yaradıcılığının əksər elementlərini bu yaradıcılıqda görmüş oluruq. Şair xalqımızın malik olduğu zəngin ədəbi incilərindən sənətkarlıqla faydalanaraq orijinal sənət nümunələri yaratmaqla yanaşı, bu dəyərlərə necə bağlı olunduğu bir daha sübut etmişdir.

2. Zəlimxan Yaqub xalq həyatında mühüm olan, onun adət və ənənələrini, düşüncələrini, inam və etiqadını əhəmiyyətli bir hadisə hesab edir. Özünü də bu həyat tərzinin nümayəndəsi kimi haqlı olaraq qəbul etdiyindən mərasim folklorumuzun incilərindən yeri gəldikcə faydalanmışdır. Bu şairin xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın qovşağında qərar tutmasına bariz nümunədir.

3. Tarixən və bu gün də ədəbiyyatımız dəyərlərimizi şifahi yaradıcılıqdan yazılı ədəbiyyata və əksinə ötürməklə ənənəçilik və varislik prinsipini qoruyub saxlamışdır. Onun ərsəyə gətirdiyi ədəbi nümunələr bir çox halda klassik aşıq və şairlərimizin ədəbi fikir xəzinəsindən qaynaqlanmışdır. Bu zaman söz ustası süni və kortəbii şəkildə deyil, məqsədyönlü şəkildə faydalanmışdır. Belə məqamlarda ədib klassik irsimizin əsasını qoyan və öz zamanına görə ədəbi mühitdə ötürücülük funkiyasını üzərinə götürən ustadlarımızın adlarını çəkməklə oxucularına bir daha onları təqdim etmiş olur. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah

Vaqif, Səməd Vurğun, Yunus İmrə, Aşıq Ələsgər kimi ədiblərimiz bu yaradıcılıqda təqdim olunan korifeylərimizdəndir. Şair onları xatırlamaqla xalqımızın bədii fikir tarixini yaradan və onu zənginləşdirən insanlara olan ehtiram hissini göstərmək istəmişdir.

4. Gəldiyimiz başqa bir nəticə xalq və onun tarixi məsələsinin bu yaradıcılıqda öz əksini son dərəcə dəqiqliklə tapmasıdır. XX əsrin ikinci yarısında Azərbaycan xalqının həyatında bir çox hadisələr yadda qaldı: Sovet ideologiyasının tədricən yumşalması və bunun nəticəsində xalqların, o cümlədən, Azərbaycan xalqının özünüdərk istiqamətindəki atdığı addımlar həyatın başqa sahələrində özünü göstərdiyi kimi ədəbiyyatda da qabarıq şəkildə inikas olunmaqda idi. Ədib yeri gəldikcə Azərbaycanın tarixi keçmişini, bu gününü tam dolğunluğu ilə yaradıcılığa gətirir. Ən azı iki yüz illik tarixi hadisələri, xalqımızın torpaqlarının zaman-zaman parçalanması, başına gətirilən faciələr yerli-yerində müxtəlif bədii çalarlarla işıqlandırılır. Xüsusilə əsrin 90-ci illərindən başlamış Qarabağ savaşı, yanvar qırğını, milli azadlıq yolunda apardığımız mücadilələr, Xocalı faciəsi tam gerçəkliyi ilə bədiiləşdirilir. Bütün bunlar isə tam deməyə əsas verir ki, xalq şairi, sözün əsl mənasında, xalqın varlığını sabaha daşımağa, onun arzu və istəklərini qəm və kədərini, azadlıq və mübarizə əzmini duymağa qadir bir sənətkardır.

5. Zəlimxan Yaqub yaradıcılığında milli koloritə, etnoqrafik dəyərlərə daha çox önəm verən şairlərimizdəndir. Azərbaycanın qəhrəmanlarını, qalalarını, bənzərsiz təbiətini, başı qarlı dağlarını, gəlin bəzəkli yaylaqlarını vəsf edərkən el aşığına, yurdumuzun toy-nişan mərasimlərindən bəhs edərkən ağzı xeyir-dualı ağsaqqala, kövrək, həzin bayatıları ilə doğma torpaqlarımızdan qaçqın, didərgin düşümüş, gözü yaşlı analara bənzəyir. Bununla belə bədbin şair deyildir. O, Azərbaycan xalqının gələcək səadətinə inanan bir sənətkardır. Lakin ədib əsərləri ilə göstərmək istəyir ki, bu səadəti heç də gözləməklə əldə etmək mümkün deyildir. Şair bir tərəfdən xalqımızın birliyini, onun döyüşkən keçmişini xatırlamaqla özünəqayıdışına əsərləri ilə səsləyirsə, digər tərəfdən ümumən sülhpərvər xalqların ətrafında birləşib zalıma lazımi cəzalar tətbiq edilməsini vurğulayır.

6. Daha bir qənaətimiz ədibin ümumbəşəri bir şəxsiyyət olması məsələsi üzərində qərarlaşır. Əslində, xalq şairi sevgi şairidir. O, bütün zülmkarlığın əleyhinədir. Onun aləmində bütün münasibətlərin devizi sevgi ilə başa gəlməlidir. "Sevgi sözü əqidədir, inamdır. Sevən kəslər peyğəmbərdir, imamdır,"- deyən şair sevginin ictimai mahiyyətini

insanlara, oxuculara bəyan edir. Şairə görə sevgi, gözəllik məzmunca heç bir digər hadisələrə bərabər tutula bilməz. Göründüyü kimi gözəllik, sevgi insanın din və iman kimi mənəvi dəyərləri ilə qarşı-qarşıya qoyulur. Məhz bu məqam insanın insan tərəfindən dərki üçün ən ümumi vasitədir. Şair bununla bir tərəfdən oxucunun humanist dəyərlərə meyl etməyini tövsiyə edir, ikinci bir tərəfdən isə yaradıcılığına estetik məna bəxş edir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalələrdə əksini tapmışdır:**

1.Z.Yaqubun yaradıcılığında mərasim folkloru ilə bağlı janrlar // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, XXXIV kitab, № 04, 2007, s. 19-23

2. Z.Yaqubun yaradıcılığında ədəbi varislik // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, XXXV kitab, № 12, 2007, s.126-128

3. Z.Yaqub poeziyasında etnoqrafik dəyərlər və onun ifadə üsulları // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, № 5, 2008, s.121-126

4. Z.Yaqubun yaradıcılığında xalq şeirinin inikas formaları // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, № 1, 2009, s.129-133

5. Z.Yaqubun poeziyasında xalq qəhrəmanlıq ənənələri və onun bəşəri mahiyyəti // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, № 2, 2009, s.120-123

6. Z.Yaqubun yaradıcılığında qoşma // "Filologiya məsələləri" jurnalı, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, № 11, 2009, s.476-483

7. Общечеловеческие ценности в творчестве известного современной Азербайджанской литературы Залимхана Якуба // Научный журнал Министерства Образования и Науки Республики Казахстан «Поиск» («Изденис»), №1, 2010, s. 168-172

8. Z.Yaqubun epik yaradıcılığında xalq və liderlik problemi // "Müasir elmin aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Lənkəran, 2013, s.138-140

9. Z.Yabuqun yaradıcılığında dastan ənənələri // "Sivilizasiya" jurnalı, Bakı Avrasiya Universiteti, №8 2014, 0,5 ç.v.

10. Z.Yaqub şifahi və yazılı ədəbiyyatın qovuşağında // "Dədə Qorqud" toplusu. AMEA Folklor İnstitutu, №3 2014, s.82-89

**Руфуллаев Г.И.**

## Залимхан Ягуб и народное творчество
## Резюме

Диссертация состоит из введения, 2 глав, заключения и списка использованной литературы.

Во “**Введении**” обосновывается актуальность темы исследования, показывается объект и предмет работы, цели и задачи, научные новшества, теоретические и методологические основы, теоретическая и практическая значимость, дается информация об апробации и структуре.

Первая глава диссертации называется **«Формы выражения народного стиха в лирике Залимхана Ягуба»** и состоит из четырех подзаголовков. В этих подзаголовках исследуются такие проблемы, как  влияние народной поэзии на творчество Залимхан Ягуба и пути использования ее поэтом. Обрядовый фольклор, народная философия и этнографические ценности в произведениях Залимхана Ягуба также исследуются в этой главе.

Вторая глава диссертации называется **«Национально-нравственные ценности в эпических произведениях Залимхан Ягуба»**, эта глава состоит из трех подзаголовков. Данная глава посвящена анализу проблем народ и герой, художественное отражение исторических событий в эпических произведениях, дастанные традиции в творчестве поэта и т.д.  При этом вопросы художественного изображения истории и героических ценностей народа стоят в центре внимания автора. История народа, его героические летописи анализируются на основе всего творчества.

В **заключении** обобщаются основные научные выводы, полученные в ходе исследования и намечаются направления дальнейших исследований по этой теме.

**Rufullayev G.I.**

## Zalimkhan Yagub and folk activity
## Summary

The dissertation work consists of the introduction, two parts, the conclusion and the list of used literature.

In the **introduction** the actuality of the investigation is based on, the object, aim and duties of the investigation are definited, the scientific innovations, methods and sources, the practical and theoretical importance of the investigation are spoken about, the information about the structure of the investigation is given.

The first part of the dissertation work is called **"The expression forms of the folk poem in the lyric of Zalimkhan Yagub"** and consists of four chapters. In these chapters the problems such as the influence of folk poeytry to the activity of Zalimkhan Yagub, the using of such ways with the poet are investigated. The traditional folklore, the folk philosophy and ethnograpical values in Zalimkhan Yagub's activity are also investigated in this part.

The second part of the dissertation is called "National-moral values in epic works by Zalimkhan Yagub" and this part consists of three chapters. This chapter is about the problems of folk and hero, the artistic reflection of the historical events in the epic works, the epos traditions in the activity of the poet and etc. The problems about artistic description of the history and heroic values of folk are in the attention of the author. The history of the folk, its heroic annals are analyzed on the base of the whole activity.

In the **conclusion** the results are summarized and the future directions of the investigated subject are shown.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

***На правах рукописи***

**ГАДИМ ИГИД оглу РУФУЛЛАЕВ**

# ЗАЛИМХАН ЯГУБ И НАРОДНОЕ ТВОРЧЕСТВО

**5719.01 - Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологическим наукам**

**БАКУ- 2014**